# ***Xarici Əlaqələr və İnvestisiya Proqramları Departamenti***

*Xarici Əlaqələr və İnvestisiya Proqramları Departamenti xarici iqtisadi əlaqələr və beynəlxalq münasibətlər, sahələrarası koordinasiya və funksional idarəetmə, həmçinin Bakı şəhəri ilə xarici şəhərlər, beynəlxalq təşkilatlar arasında əlaqələrin formalaşdırılması, o cümlədən dövlətin xarici siyasətinə uyğun olaraq xarici investisiyaların Bakı şəhərinə cəlb edilməsi və onun müdafiəsi sahəsində fəaliyyət göstərən Bakı Şəhər İcra Hakimiyyətinin funksional dövlət idarəetmə orqanıdır.*

*Departament öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən Bakı Şəhər İcra Hakimiyyətinin orqanları, şəhər (rayon) icra hakimiyyətləri, digər icra hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları, təşkilatlar və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.*

*Həmçinin departament öz səlahiyyətləri çərçivəsində Azərbaycan Respublikasının xaricdəki səfirlikləri, konsulluqları, beynəlxalq təşkilatlardakı nümayəndələri ilə, o cümlədən xarici dövlətlərin və onların regionlarının, beynəlxalq təşkilatların Bakı şəhərindəki nümayəndəlikləri və konsulluqları ilə müəyyən olunmuş qaydada qarşılıqlı fəaliyyətini həyata keçirir.*

## ***Xarici Əlaqələr və İnvestisiya Proqramları Departamentinin strukturu:***

| **№** | **Soyadı, adı, atasının adı** | **Vəzifəsi** | **Əlaqə telefonu** |
|---|---|---|---|
| 1. | İsmayılov Vahid Cabbar oğlu | sədr | 492-97-68 |
| 2. | Mustafayev Elşən Cəfər oğlu | sədr müavini | 492-61-55 |
| 3. | Qiyasbəyli Elxan Ramiz oğlu | Beynəlxalq münasibətlər və xarici ölkələrin şəhərləri ilə əlaqələr sektorun müdiri | 492-65-63 |
| 4. | Atayev Mübariz Nadir oğlu | Beynəlxalq protokol sektorunun müdiri | 497-73-09 |
| 5. | Bağırov Rəvan Cavid oğlu | İnvestisiya proqramları və analitik informasiya sektorun müdiri | 497-52-29 |
| 6. | Mehdiyev Həmid Mübah oğlu | Hüquq-müqavilə sektorun müdiri | 4977308 |
| 7. | Məmmədova Sevinc Namaz qızı | Katiblik - sektor müdiri | 492-66-61 |
| 8. | Məmmədova Ülviyyə Natiq qızı | baş mühasib | 497-60-18 |

***Ünvan:*** *AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küçəsi 18,*
*(Bakı Şəhər İcra Hakimiyyətinin inzibati binasında yerləşir)*
*e-mail: mail@baku-ih.gov.az*

**BAKI ŞƏHƏR İCRA HAKİMİYYƏTİNİN XARİCİ ƏLAQƏLƏR SAHƏSİDƏKİ İŞİNİN ƏSAS İSTİQAMƏTLƏRİ:**

- *Bakı şəhərinin xarici tərəfdaşları ilə qarşılıqlı beynəlxalq münasibətləri sahəsindəki strategiyası və əsas istiqamətləri üzrə təklifləri hazırlayaraq Bakı Şəhər İcra Hakimiyyətinin Başçısına təqdim etmək;*
- *Bakı şəhərinin xarici iqtisadi və beynəlxalq münasibətlər sahəsindəki vahid siyasətinin həyata keçirilməsini təmin edərək, xarici investorların Bakı şəhərinə cəlb edilməsi və onların hüquqlarının müdafiəsini təşkil etmək;*
- *Bakı şəhərinin beynəlxalq təşkilatlarla əməkdaşlığını, bu təşkilatların fəaliyyətində Bakı şəhərinin üzv kimi iştirakını, həmçinin Bakı Şəhər İcra Hakimiyyəti orqanlarının beynəlxalq təşkilatlarla əməkdaşlığının koordinasiyasını həyata keçirmək;*
- *Bakı Şəhər İcra Hakimiyyətinin orqanları ilə xarici tərəfdaşlar arasındakı beynəlxalq münasibətlərdə, Bakı şəhərinin xarici iqtisadi və beynəlxalq münasibətlər sahəsindəki vahid siyasətini təmin etmək məqsədi ilə koordinasiyasını həyata keçirmək;*
- *Şəhər layihələri və proqramları çərçivəsində icra hakimiyyəti orqanları ilə xarici investorlar arasında koordinasiyanı həyata keçirmək və investisiya layihələri üzrə məlumat bazasını formalaşdırmaqdır.*

***Bakı 1978-ci ildən etibarən Ümumdünya Qardaşlaşmış şəhərlər Federasiyasının üzvüdür. Bakının qardaşlaşdığı şəhərlər:***

- *Dakar (Seneqal) -1970*
- *İzmir (Türkiyə) - 1986*
- *Neapol (İtaliya) - 1972*
- *Təbriz (İran) - 1994*
- *Hyuston (ABŞ) - 1979*
- *Bəsrə (İrak) - 1979*
- *Sarayevo (Bosniya və Hersoqovina) - 1977*
- *Vunqtau-Kondao (Vyetnam) - 1986*
- *Bordo (Fransa) - 1979*
- *Mayntz (AFR) - 1984*

***İmzalanmış sazişlər:***

- *Bakı Şəhər İcra Hakimiyyəti (Azərbaycan Respublikası) və Kiyev (Ukrayna) Şəhər Administrasiyası arasında əməkdaşlıq haqqında;*
- *Bakı Şəhər İcra Hakimiyyəti (Azərbaycan Respublikası) və Minsk (Belarus Respublikası) meriyası arasında ticarət–iqtisadi, elmi–texniki və mədəni əməkdaşlıq haqqında;*
- *Bakı Şəhər İcra Hakimiyyəti (Azərbaycan Respublikası) və Astana Akimatı (Qazaxıstan Respublikası) arasında ticarət–iqtisadi, elmi–texniki və mədəni əməkdaşlıq haqqında;*
- *Bakı Şəhər İcra Hakimiyyəti (Azərbaycan Respublikası) və Daşkənd şəhəri (Özbəkistan Respublikası) arasında ticarət–iqtisadi, elmi–texniki və mədəni əməkdaşlıq haqqında;*
- *Bakı Şəhər Səhiyyə Baş İdarəsi (Azərbaycan Respublikası) və Moskva Səhiyyə Komitəsi (Rusiya Federasiyası) arasında əməkdaşlıq haqqında;*
- *Bakı Şəhər İcra Hakimiyyəti (Azərbaycan Respublikası) Tbilisi şəhəri (Gürcüstan Respublikası) arasında ticarət–iqtisadi, elmi–texniki və humanitar əməkdaşlıq haqqında;*
- *Bakı Şəhər İcra Hakimiyyəti (Azərbaycan Respublikası) Ulyanovsk Şəhər Administrasiyası (Rusiya Federasiyası Ulyanov vilayəti) arasında ticarət–iqtisadi, elmi–texniki və humanitar əməkdaşlıq haqqında;*
- *Bakı Şəhər İcra Hakimiyyəti və Sankt–Peterburq arasında iqtisadi–ticarət, elmi–texniki və mədəniyyət sahələrində əməkdaşlıq haqqında;*
- *Azərbaycan Respublikası Hökuməti ilə Moskva Hökuməti arasında ticarət–iqtisadi, elmi–texniki və mədəniyyət sahələrində əməkdaşlıq haqqında.*

***İmzalanmış protokollar:***

- *Bakı-Varşava*
- *Bakı–Roma*
- *Bakı-Haaqa*
- *Bakı-Əmman*
- *Bakı-Neapol*

***Müxtəlif səviyyələrdə əlaqələrimiz olan şəhərlər aşağıdakılardır:***

*Paris, Berlin, İstambul, Vyana, Seul, Maynts, Aberdin, Stavanger, Çendu və Karamay (ÇXR).*

*Bakıda "Dakar" meydanı, Neapol və Sarayevo, Kral Hüseyn, İzmir küçələri vardır.*

*Dakarda isə "Bakı" meydanı, Neapolda Bakı küçəsi, Vunqtau-Kondauda isə "Bakı" mehmanxanası mövcuddur.*

***Bakı aşağıdakı beynəlxalq təşkilatların üzvüdür:***

- *Ümumdünya Qardaşlaşmış şəhərlər Fedarasiyası;*
- *Ümumdünya İrs Şəhərləri Təşkilatı (YUNESKO);*
- *Ümumdünya Energetika Şəhərləri Təşkilatı;*
- *"Avroqrad" Beynəlxalq İnstitutu;*
- *Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Ölkələri Paytaxtlarının İttifaq.*